# Vətən müharibəsi şəhidi Samir Əliyevin məzarı ziyarət olunub

**Avqustun 9-da Vətən müharibəsi şəhidi leytenant Samir Əliheydər oğlu Əliyevin anım günü ilə əlaqədar İkinci Fəxri xiyabanda məzarı ziyarət olunub.**



AZƏRTAC xəbər verir ki, tədbirdə şəhidin yaxınları, Müdafiə Nazirliyinin idarə və təşkilatlarının əməkdaşları, qazilər və digər ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edənlər leytenant Samir Əliyevin Azərbaycanın şanlı tarixini yazmış qəhrəmanlardan biri olduğunu, onun kimi cəsur Azərbaycan əsgər və zabitlərinin döyüş meydanında düşmənə layiqli dərs verərək, onları torpaqlarımızdan qovduqlarını bildiriblər. Qeyd olunub ki, Vətənimizin bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş şəhidlərimizin xatirəsi xalqımızın qəlbində daim yaşayacaq. Bildirilib ki, bu gün şəhid ailələri və qazilər dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunublar.

Azərbaycan.- 2024.- 10 avqust, (№ 169).- S.12.